Azərbaycan.- 2021.- 21 aprel. S. 8.

# Azərbaycanın qeyri-neft ixracı artıb

*İnkişafın təməlində dayanan əsas amil düzgün və ölçülüb biçilmiş iqtisadi siyasətdir. Azərbaycanda həyata keçirilən uğurlu iqtisadi siyasətin və islahatların nəticəsidir ki, qlobal iqtisadi böhran şəraitində milli iqtisadiyyatımız başqa dövlətlərdə olduğu kimi ağır itkilərlə üzləşmədi.*

Koronavirus pandemiyasının bütün ölkələrin iqtisadiyyatına böyük zərbələr vurduğu dövrdə Azərbaycan iqtisadiyyatında dərin böhran yaşanmadı.

## 3 ayda 2,1 faiz artm

Neftin qiymətinin aşağı olmasına baxmayaraq, həyata keçirilən islahatların, düşünülmüş iqtisadi siyasətin nəticəsi olaraq 2018-2019-cu illərdə Azərbaycanda qeyri- neft sektorunun inkişafında artım qeydə alındı. Daha dəqiq desək, 2018-ci ildə qeyri-neft sektorunda 9 faizdən çox artım oldu. O cümlədən ixrac əvvəlki illə müqayisədə təxminən 40 faiz çoxaldı. Həmin il "Cənub qaz dəhlizi"nin, TANAP kəmərinin inşasının başa çatdırılması, Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin istifadəyə verilməsi ilə yeni enerji və nəqliyyat-logistika infrastrukturunun formalaşdırılıması istiqamətində qarşıya qoyulan vəzifələr yerinə yetirildi.

2019-cu ildə isə Azərbaycanda iqtisadiyyat 2,2 faiz, qeyri-neft sektoru 3,5 faiz, qeyri-neft sənayesi 14 faizdən çox artdı.

Ötən ilin əvvəllərində ölkədə iqtisadi artım müşahidə edilsə də, dünyada koronavirus pandemiyasının geniş yayılması dünya ölkələrinin iqtisadiyyatına ciddi təsir göstərməklə yanaşı, ölkə iqtisadiyyatına da təsirsiz ötüşməyib. 2020-ci ilin yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirədə Prezident İlham Əliyev bildirdi ki, 2020-ci ilin bütün ölkələr üçün iqtisadi sahədə ağır il olmasına baxmayaraq, Azərbaycan digər ölkələrə nisbətən bu vəziyyətdən daha az itkilərlə çıxıb. Eyni zamanda ötən il Azərbaycanda qeyri-neft sənayesi 11 faizdən çox artıb. Bu isə real iqtisadiyyatın, qeyri-neft iqtisadiyyatının inkişafı deməkdir. Kənd təsərrüfatında artım 2 faiz təşkil edib. Bu ilin ilk 3 ayında isə iqtisadiyyatın qeyri neft-qaz sektorunda 2,1 faiz artm qeydə alınıb.

## 23 ölkəyə telekommunikasiya və peyk xidmətləri göstərilib

2021-ci ilin yanvar-fevral ayları ərzində qeyri-neft sektoru üzrə 331,3 milyon ABŞ dolları dəyərində ixrac reallaşdırılıb. Bu, 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 33,6 milyon ABŞ dolları və ya 11,3 faiz artım deməkdir. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İxrac İcmalında qeyd olunub.

Bu ilin yanvar-fevral ayları ərzində meyvə-tərəvəz ixracı 70,5 milyon, pambıq lifi ixracı 37,4 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 27,7 milyon, kimya sənayesi məhsullarının ixracı 6,3 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 14,6 milyon, pambıq ipliyi ixracı 6,9 milyon, spirtli və spirtsiz içkilərin ixracı 1,9 milyon, şəkər ixracı 4,9 milyon, bitki və heyvan mənşəli piylər və yağlar ixracı 3,9 milyon, çay ixracı 1,4 milyon ABŞ dolları təşkil edib.

Bu dövrdə Türkiyəyə 106,9 milyon, Rusiyaya 85,5 milyon, İsveçrəyə 35,2 milyon, Gürcüstana 28,3 milyon və ABŞ-a 13,2 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Onu da qeyd edək ki, yanvar-fevral aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın 23 ölkəsinə xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 90 faizini təşkil edib.

## Müsbət saldo yaranıb

Ümumiyyətlə, 2021-ci ilin yanvar-fevral aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 142 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçiriblər.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2021-ci ilin yanvar-fevral aylarında ölkənin xarici ticarət dövriyyəsi 4 milyard 515 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 2 milyard 903 milyon dollarını və ya 64,3 faizini ölkədən ixrac olunmuş məhsulların, 1 milyard 612 milyon dollarını (35,7 faizini) isə idxal məhsullarının dəyəri təşkil edib, nəticədə 1 milyard 291 milyon dollar məbləğində müsbət saldo yaranıb.

2021-ci ilin yanvar-fevral aylarında "Azexport.az" portalına 89,2 milyon ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olub. Ən çox ixrac sifarişi tütün, şəkər tozu, fındıq ləpəsi, günəbaxan yağı, biyan kökü, çay, şərab, toyuq yumurtası, meyvə şirəsi, kosmetik vasitə, mühərrik yağı, qənnadı məhsulu, pambıq, toyuq əti, zəfəran, sarımsaq və s. mallar üzrədir.

"Azexport.az"-ın missiyası Azərbaycan mənşəli mallar haqqında məlumatların təqdim edilməsi və onların daxili və xarici bazarlarda satışı üçün əlverişli platformanın yaradılmasıdır. Dünyanın ən populyar elektron satış şəbəkələri ilə inteqrasiya olunan bu resurs Azərbaycan nemətlərini planetin bütün nöqtələrində potensial alıcılara əlçatan edir. Bu missiyanı həyata keçirmək üçün dünyanın və ölkəmizin aparıcı nəqliyyat-logistika şirkətləri Azərbaycan mallarının daşınması üçün əlverişli şəkildə "Azexport.az"-a inteqrasiya olunublar.

Xatırladaq ki, 2017-ci ilin yanvar ayından 2021-ci ilin fevral ayına kimi "Azexport.az" portalına dünyanın 143 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 2 milyard 285 milyon ABŞ dolları təşkil edib.

Pandemiya nəticəsində iqtisadiyyatın müxtəlif sektorlarında yaranan çətinliklər bütün dünyada xarici ticarət dövriyyəsinə və ölkələrin ixracına da təsirsiz ötüşmür. Lakin görünən odur ki, pandemiyanın imkanları məhdudlaşdırdığı bir şəraitdə Azərbaycanda qəbul olunan stimullaşdırıcı və dəstəkləyici qərarlar müsbət nəticəsini verir və xüsusən qeyri-neft ixracı ilə bağlı mənzərə qənaətbəxşdir.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**